# «Tour d’Azerbaidjan» beynəlxalq velosiped turu başa çatdı

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş, mayın 1-də Bakıda start götürmüş, 24 ölkədən 25 komandanın tərkibində 400 nəfərə yaxın idmançının qatıldığı beynəlxalq velosiped turu mayın 5-də elə həmin məkanda da başa çatmışdır.

Yarışların birinci mərhələsində idmançılar Heydər Əliyev Mərkəzi—Heydər Əliyev prospekti—metronun “Koroğlu” stansiyası marşrutu üzrə ümumi uzunluğu 157,3 kilometr olan məsafədə 11 dəfə dövrə vurmuşlar. Maraqlı idman mübarizəsi şəraitində keçən yarışda Azərbaycan komandasının velosipedçisi Kristof Şveyzer bu mərhələnin qalibi olmuşdur. İsveçrəli idmançı Maksim Averin ikinci, Hollandiya kollektivinin velosipedçisi Martinus van Trijp üçüncü yerə yiyələnmişdir.

Turun ikinci mərhələsində idmançılar mayın 2-də Şıx çimərliyi ilə üzbəüz ərazidə yenidən qurulmuş müasir velosiped parkından start götürərək Bakı—Abşeron—Qobustan—Şamaxı—İsmayıllı marşrutu üzrə 183 kilometr məsafəni qət etmişlər. Türkiyə komandasının təmsilçisi Sergey Qreçin ikinci mərhələnin qalibi olmuşdur. İkinci yerə bakılı Aleksandr Srutkoviç yiyələnmişdir. Qazaxıstanın “Astana” komandasının nümayəndəsi Bəxtiyar Kojatayev üçüncü yerlə kifayətlənmişdir.







Beynəlxalq velosiped turunun 3-cü mərhələsinə mayın 3-də Qəbələ şəhərinin mərkəzindən start verildi. İdmançılar bu mərhələ üzrə Qəbələ—Oğuz—Şəki—Oğuz—Qəbələ marşrutu üzrə 165,3 kilometrlik məsafəni qət etdikdən sonra Qəbələdə finiş xəttinə çatıblar. Ukrayna təmsilçisi Vitali Popkov I, belçikalı Stiq Breyks II, Azərbaycan velosipedçisi Kristof Şveyzer III yeri tutmuşlar.

Mərhələnin qalibinə və mükafatçılara medalları turun təşkilat komitəsinin sədri, Azərbaycan velosiped federasiyasının vitse-prezidenti Sahib Ələkbərov və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev təqdim etmişlər.

Mayın 4-də beynəlxalq veloyürüşün dördüncü mərhələsi başa çatmışdır.

Veloyürüş iştirakçıları bu mərhələdə Qəbələ şəhərinin mərkəzindən start götürmüş və İsmayıllı rayonunun ərazisindən keçməklə 116 kilometr məsafəni qət etməklə Şamaxı rəsədxanasının yaxınlığında yerləşən Pirqulu qəsəbəsində dəniz səviyyəsindən təxminən 1450 metr yüksəklikdə finişə çatmışlar.

Bu mərhələdə Lüksemburq komandasının üzvü Yan Xirst birinci, Bakı velosipedçisi Konnor Makkonvey ikinci, İspaniya yığmasının üzvü Diyeqo Rubin Ernandes isə üçüncü yeri tutmuşlar.

Mayın 5-də ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş velosiped yarışı başa çatmışdır. Bakı şəhəri, Abşeron, Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki rayonları ərazisindən keçməklə 5 mərhələdən ibarət olan beynəlxalq velosiped turunun son mərhələsi paytaxtın mərkəzi küçələrində idmançıların 12 dəfə dövrə vurması ilə yekunlaşmışdır. Bu mərhələnin ümumi uzunluğu 144 kilometr olmuşdur.

Yarışın beşinci mərhələsi Azadlıq meydanından start götürmüşdür. Maraqlı idman mübarizəsi şəraitində keçən yarışda Litva milli komandasının üzvü Tomas Vaitkus sonuncu mərhələnin qalibi olmuşdur. Lüksemburqun nümayəndəsi Sin De Bi ikinci, Hollandiya kollektivinin velosipedçisi Konstant Godril üçüncü nəticə göstərmişlər.

Yarışların sonuncu mərhələsi başa çatdıqdan sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilmişdir. Yarışda ümumi hesabda birinci olan Türkiyə komandasının üzvü Sergey Qreçin, sprint yarışlarında lider olan Azərbaycan komandasının velosipedçisi Kristof Şveyzer ikinci, dağ idmanı yarışlarının birincisi digər Bakı idmançısı Konnor Makkonvey turnirin qaydalarına müvafiq olaraq müxtəlif rəngli köynəklərlə mükafatlandırılmışlar.

Yarışın ən yaxşı gənc idmançısı adına Qazaxıstanın “Astana” komandasının üzvü Bəxtiyar Kojatayev layiq görülmüşdür. Ən yaxşı azərbaycanlı idmançı üçün nəzərdə tutulmuş mükafat isə Elçin Əsədova təqdim olunmuşdur.

**Miri RƏHİMOV.**

**Fotolar S. Umuyevindir.**

# Beynəlxalq konfrans

Mayın 6-da Qəbələ şəhərində “Qafqaz Resort” mehmanxanasında “e-Hökumət: Gömrük sahəsində innovasiyalar” mövzusunda 5-ci Beynəlxalq konfrans işə başlamışdır.






Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində baş tutan bu konfrans Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə keçirilir və konfransa 55 dövlət və 5 beynəlxalq təşkilatdan 102 nümayəndə qatılmışdır.

Qeyd edək ki, gömrük işində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı keçirilən konfransda əsas məqsəd e-Hökumət quruculuğu və onun tətbiqi ilə bağlı dünya təcrübəsi, elektron idarəçilik sahəsində dövlət qurumları arasında əməkdaşlığın müasir formalarının müzakirəsi, gömrük işində və iqtisadiyyatın digər sahələrində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və innovativ idarəetmə metodları ilə bağlı mövcud vəziyyətin öyrənilməsi və təcrübə mübadiləsinin aparılmasıdır.

Konfrans işə başlamazdan öncə, tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, abidə önünə əklil qoymuşlar.

Sonra “Qafqaz Resort” mehmanxanasında konfransın açılış mərasimində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev və Rabitə və İnformasiya Texnologiyaları nazirinin müavini Elmir Vəlizadə çıxış etmişlər. Konfransda BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi, BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi Antonius Broek, Ümümdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin rəhbəri Vitaliy Mikeladze iştirak etmişlər.

Daha sonra konfransda “Gömrük orqanlarının informasiya sistemlərinin təkmilləşdirilməsi” layihəsi: nəticələr və perspektivlər, Mürəkkəb biznes prosesli təşkilatlarda elektron xidmətlərin təşkili üzrə layihələrin idarə olunmasının əsas prinsipləri: “Elektron Gömrük Xidmətləri” nümunəsində, İctimai diplomatiya və e-hökumət, Tranzit yüklərə kompleks nəzarət sistemi, e-Dövlət mühitində infromasiya təhlükəsizliyinin idarə olunması problemləri, Dövlət maliyyə sistemində antiböhranın idarə edilməsi: Metodologiya, Ticarət sahəsində məlumat axınlarının və ticarətin asanlaşdırılması prosesinin idarə edilməsinə yeni üsullar, Gömrük işi sahəsində elektron tədris: beynəlxalq, regional və milli kontekstlər, Açıq məlumat gömrük və biznes əməkdaşlığında şəffaflığın artırılması vasitəsi kimi, Vahid Avtomatlaşdırılmış İnformasiya Sistemində elektron gömrük ödənişləri, Xarici iqtisadi fəaliyyət iştirakçısının şəxsi kabineti – elektron xidmət dəstindən kompleks şəkildə özünə xidmətə doğru, Elektron hökumət və sosial media, E-xidmətlərin tətbiqi - davamlı inkişaf konsepsiyasının reallaşdırılması mexanizminin tərkib hissəsi kimi, Tarif siyasətinin tətbiqində informasiya texnologiyalarından istifadə, Gömrük rəsmiləşdirilməsi və nəzarəti prosedurlarında mürəkkəb tranzaksiyalı informasiya axınlarının idarə edilməsi prinsipləri və s. mövzularda məruzələr dinlənilmiş və müzakirələr aparılmışdır.

**Oqtay MƏMMƏDOV.**

**Fotolar S. Umuyevindir.**